aqrar-sənaye kompleksi müəssisələrinə, fermer təsərrüfatlarına dövlətin maliyyə yardımı proqramlarının davam etdirilməsi, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən əhalinin müxtəlif təbəqələrinə mikrokreditlərin verilməsi sxeminin hazırlanması və bu sektorda layihələri maliyyələşdiriləcək mikrokredit banklarının, kredit ittifaqlarının yaradılmasının dəstəklənməsi, kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sisteminin təşkilinin stimullaşdırılması;

fermerlər tərəfindən yetişdirilən məhsulların həm daxili, həm də xarici bazarlarda satışına dövlət tərəfindən hərtərəfli dəstəyin göstərilməsi, İxraca Yardım Fondunun, birjaların, topdansatış anbarlarının, auksionların yaradılması;

baytar-sanitar, texniki nəzarət, fitosanitar, toxumçuluğun və damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi və maliyyələşdirilməsi;

aqrotexservis xidmətləri şəbəkəsinin yaradılmasının dəstəklənməsi;

mövcud meliorasiya-irriqasiya sistemlərinin bərpası və yenidənqurulması, yeni sistemlərin tikilməsi hesabına suvarılan torpaqların su təminatının yaxşılaşdırılması, torpaqların şoranlaşmasının qarşısının alınması, magistral kollektorlar vasitəsilə şor suların maneəsiz Xəzər dənizinə axıdılması;

su çatışmazlığının aradan qaldırılması, bu məqsədlə yeni su anbarlarının, magistral kanalların və digər su təsərrüfatı obyektlərinin tikilməsi;

torpaqların eroziyasına qarşı müvafiq tədbirlərin həyata keçirilməsi;

torpaqların rekultivasiyası layihələrinin hazırlanması;

torpaq kadastrının yaradılması;

- ölkədə torpaq bazarının yaradılması;

torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi.

Azərbaycanın kənd təsərrüfatında ənənəvi sahələr olan taxılçılığın, üzümçülüyün, meyvəçiliyin, pambıqçılığın, tütünçülüyün, çayçılığın, ipəkçiliyin və digər sahələrin inkişafı prioritet vəzifə olacaqdır.

Regionların iqtisadi inkişafının təmin olunmasında, əhalinin həyat səviyyəsinin yüksəldilməsində infrastrukturun və kommunal xidmətlərin başlıca amillərdən biri olduğunu nəzərə almaqla 2004-2008-ci illəri əhatə edən müddət ərzində bu sahələrdə dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılar olacaqdır:

müasir tipli elektrik stansiyalarının, yolların, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşası, yenidən qurulması və inkişafı layihələrinin həyata keçirilməsi;

kənd rayonlarında və qəsəbələrdə nəqliyyatın, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi;

maliyyə infrastrukturunun inkişaf etdirilməsi;

əhalinin, xüsusilə kənd əhalisinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, su, qaz, rabitə və s. ilə təminatının müasir tələblər səviyyəsinə çatdırılması, bu məqsədlə bu sahələrdə restrukturizasiya tədbirlərinin davam etdirilməsi;

infrastruktur və kommunal xidmət obyektlərinin idarə edilməsində bələdiyyələrin rolunun artırılması.

Dövlətin struktur siyasəti neft sektoru ilə yanaşı qeyri-neft sektorunun inkişafına, innovasiya texnologiyalarının daha geniş tətbiqinə, iri müəssisələrin özəlləşdirilməsinə, sahibkarlığın inkişafına, ixrac potensialının artırılmasına yönələcəkdir.

Özəlləşdirmə prosesinin başlıca məqsədlərindən biri regionlarda işləməyən müəssisələrin fəaliyyətinin bərpa edilməsindən, yeni iş yerlərinin açılmasından ibarət olacaqdır.

Bu məqsədlə aşağıdakı tədbirlər görüləcəkdir:

özəlləşdirmə prosesində şəffaflığın təmin edilməsi;

Dövlət Proqramına uyğun olaraq yeni sahələrin özəlləşdirilməyə açılması və müəssisələrin özəlləşdirilməsi prosesinin intensivləşdirilməsi;

özəlləşdirmə paylarının maksimum istifadə edilməsi;

xüsusi mülkiyyətin toxunulmazlığının təmin edilməsi, əmlak və səhm sahiblərinin hüquqlarının qorunması;

daşınmaz əmlakın Dövlət Reyestrinin yaradılması və onun işinin beynəlxalq tələblər səviyyəsində qurulması.

Növbəti illərdə Azərbaycanda sahibkarlıq mühitinin yaxşılaşdırılmasına yönəlmiş kompleks tədbirlər davam etdiriləcək və onların başlıca istiqamətləri aşağıdakılar olacaqdır:

regionlarda sahibkarlığın inkişafına dövlət maliyyə köməyinin artırılması;

rayonlarda mövcud olan potensial imkanlar barədə məlumat bazasının yaradılması;

yerlərdə sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və s. xidmətlər göstərəcək mərkəzlərin yaradılması;

rayonlarda turizmin inkişaf etdirilməsi;

rayonlarda ticarət yarmarkalarının yaradılması;

istehsal olunan məhsulların keyfiyyətinə laboratoriya nəzarətinin gücləndirilməsi;

yerli ixtisaslaşmanı nəzərə almaqla rayonlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması;

sahibkarlığın təşviqinə yönəlmiş vergi-gömrük siyasətinin həyata keçirilməsi;

təbii inhisarların tariflərinin müntəzəm şəkildə tənzimlənməsi;

sahibkarlıq fəaliyyətinə müdaxilələrin qarşısının qəti şəkildə alınması;

ipoteka, lizinq, françayzinq kimi beynəlxalq təcrübədə uğurla sınaqdan çıxmış sahibkarlıq fəaliyyəti növlərinin dəstəklənməsi və inkişaf etdirilməsi;

dövlət-sahibkar dialoqunun genişləndirilməsi.

Növbəti beş ildə regionlarda sosial siyasətin başlıca məqsədini əhalinin, o cümlədən regionlarda yaşayan vətəndaşların mənəvi ehtiyaclarının daha dolğun ödənilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması təşkil edəcəkdir.

Sosial təminat sahəsində dövlətin həyata keçirəcəyi siyasətin ən mühüm istiqamətlərindən biri pensiyaların müntəzəm olaraq artırılmasından və onların ünvanlılığının təmin edilməsindən, əlillərə, müharibə veteranlarına, gənc ailələrə, əhalinin ən az təminatlı hissəsinə xüsusi diqqətin yetirilməsindən ibarət olacaqdır.

Təhsil islahatları onun strukturunun və məzmununun yeniləşməsinə istiqamətlənəcəkdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı tədbirlər həyata keçiriləcəkdir:

təhsilin məzmununun müasirləşdirilməsi, onun keyfiyyətinin artırılması;

əhalinin bütün təbəqələri üçün təhsil almaq imkanlarının bərabərləşdirilməsi;

- şagirdlərin pulsuz dərsliklərlə təmin edilməsi;

tələbələrin təqaüdlərinin artırılması;

məktəbəqədər təlim-tərbiyə təhsil sisteminin təkmilləşdirilməsi;

rayonlarda yeni məktəblərin inşası, kənd məktəblərinin texniki və kadr təminatının yaxşılaşdırılması.

Elm sahəsində ən mühüm vəzifələrdən biri sahələrin, o cümlədən aqrar elm sahələrinin inkişafından, bu sahədəki elmi tədqiqat və layihə institutlarının fəaliyyətinin təsərrüfat strukturları ilə əlaqələndirilməsindən ibarət olacaqdır.

Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi əhalinin sağlamlığının yaxşılaşdırılmasından, orta ömür müddətinin uzadılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün səhiyyə sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılar olacaqdır:

dövlətin maliyyə imkanları çərçivəsində pulsuz səhiyyə xidmətlərinin genişləndirilməsi və onun keyfiyyətinin artırılması;

ölkədə tibbi sığorta sisteminin yaradılması;

səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının yaxşılaşdırılması məqsədilə tibb sənayesi müəssisələrinin yaradılmasının və fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi;

tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi;

əhalinin sosial cəhətdən ən aşağı təminatlı təbəqələrinə tibbi yardımın göstərilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanması və həyata keçirilməsi;

rayonlarda yeni səhiyyə müəssisələrinin inşası.

Mədəniyyət sahəsində dövlət siyasətinin strateji məqsədləri ölkənin mədəni potensialının, sərvətlərinin və ənənələrinin qorunub saxlanmasından və inkişaf etdirilməsindən, yaradıcılıq və təhsil sisteminin təkmilləşdirilməsindən ibarət olacaq, mədəniyyətin dövlət büdcəsindən maliyyələşdirilməsi ardıcıl olaraq artırılacaq, onun maddi, texniki və informasiya infrastrukturu inkişaf etdiriləcəkdir.

Bədən tərbiyəsi və idman sahəsində dövlət siyasətinin strateji məqsədləri əhalinin sağlamlığının yaxşılaşdırılmasından, insanlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə olunmasından, vətənin müdafiəsinə hazırlığın təmin edilməsindən ibarət olacaqdır.

Regionların yuxarıda qeyd olunan istiqamətlərdə inkişafı və Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla ölkənin iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşdırılmasında mühüm rol oynayacaqdır.

Proqnozlara görə 2008-ci ildə ümumi daxili məhsul 2003-cü illə müqayisədə 2,3 dəfə artaraq 76,3 trilyon manat, ümumi daxili məhsulun adambaşına düşən həcmi 1578 ABŞ dolları, qeyri-dövlət sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi 85 faiz təşkil edəcəkdir. 2004-2008-ci illərdə ümumi daxili məhsulun strukturunda bütün sahələrin, o cümlədən kənd təsərrüfatının artım tempi orta hesabla 10-15 faiz səviyyəsində olacaqdır. Beş il ərzində kənd təsərrüfatı istehsalının real artımı 62,5 faiz təşkil edəcəkdir, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşunun həcmi 16,8 mlrd. ABŞ dollarına çatacaqdır ki, bunun da təxminən 60 faizi regionlara yönələcəkdir.

Növbəti beş ildə ümumilikdə 600 min yeni iş yeri yaradılacaq və orta aylıq əmək haqqı 3,1 dəfə artırılacaqdır.

[1)] Bakı şəhəri Azərbaycanın digər rayonları ilə müqayisədə daha yüksək İnkişaf etdiyindən bu Dövlət Proqramında onun İnkişafı məsələlərinə toxunulmamışdır və bu baxımdan da Bakı şəhəri Abşeron iqtisadi rayonunun tərkibinə daxil edilmişdir.

# 3. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI (2004 -2008-ci illər) üzrə HƏYATA KEÇİRİLMƏLİ T Ə D B İ R L Ə R

## 3.1. Azərbaycan Respublikasında makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi tədbirləri

## 3.2. İqtisadi rayonlar üzrə həyata keçiriləcək tədbirlər

| Sıra №-si | Tədbirin adı | Tədbirin məqsədi | Yerinə yetirilmə müddəti | İcraçılar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 3.1.1. | Qanunvericilik bazasının təkmilləşdirilməsi, o cümlədən ölkədə xüsusi iqtisadi zonaların yaradılması, investisiya fəaliyyətinin genişləndirilməsi, antiinhisar və digər iqtisadi münasibətləri tənzimləyən, regionların inkişafını stimullaşdıran qanun layihələrinin hazırlanması | Əlverişli iqtisadi mühitin təmin edilməsi, regionlara investisiyaların cəlb edilməsi, yerli istehsalçıların maraqlarının qorunması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, müvafiq dövlət orqanları |
| 3.1.2. | Məşğulluq strategiyasının hazırlanması | Əhalinin məşğulluğunun təmin edilməsi | 2004-cü il | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, müvafiq dövlət orqanları |
| 3.1.3. | Özəlləşdirmə prosesinin sürətləndirilməsi, orta və iri müəssisələrin səhmdar cəmiyyətlərinə çevrilməsi və onların səhmlərinin satışı | Müəssisələrin fəaliyyətinin bərpa edilməsi, yeni iş yerlərinin açılması | 2004-2008-ci illər | Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi |
| 3.1.4. | Regionların sosial-iqtisadi inkişafına yönəldilmiş layihələrin maliyyə təminatının artırılması | Regionlarda layihələrin həyata keçirilməsinin sürətləndirilməsi | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Bank |
| 3.1.5. | Dövlət investisiyalarının əsasən istehsal müəssisələrinin bərpasına, regionların infrastruktur və kommunal xidmət təminatının yaxşılaşdırılmasına, sosial obyektlərin inşasına yönəldilməsi | Regionların infrastruktur və kommunal xidmət təminatının yaxşılaşdırılması və müəssisələrin fəaliyyətinin bərpası | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.1.6. | Vergi dərəcələrinin optimal həddədək azaldılması | Ölkədə sahibkarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması | 2004-2008-ci illər | Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Gömrük Komitəsi |

| | | | | |
|---|---|---|---|---|
| 3.1.7. | Kənd təsərrüfatı istehsalçılarına vergi tətillərinin tətbiq edilməsi siyasətinin davam etdirilməsi | Kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 3.1.8. | Gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması siyasətinin davam etdirilməsi | Yerli istehsalçıların maraqlarının qorunması | 2004-2008-ci illər | Dövlət Gömrük Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.1.9. | Tarif-qiymət siyasətinin əhalinin həyat səviyyəsi və ödəniş qabiliyyəti nəzərə alınmaqla təkmilləşdirilməsi | Əhalinin maddi rifahının yaxşılaşdırılması | 2004-2008-ci illər | Tarif Şurası |
| 3.1.10. | Azərbaycan Respublikasının Şimal, Cənub və Qərb istiqamətlərində, habelə Bakı şəhəri ətrafında böyük gömrük terminallarının və sərbəst gömrük zonalarının yaradılması | Yeni iş yerlərinin yaradılması və yerli istehsalın genişləndirilməsi | 2005-2008-ci illər | Dövlət Gömrük Komitəsi |
| 3.1.11. | Yerlərdə sahibkarlar üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və digər xidmətlərin gücləndirilməsi, sahibkarların regional ictimai birliklərinin yaradılmasının dəstəklənməsi | Regionlarda sahibkarlığın inkişaf etdirilməsi | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.12. | Regionlarda təhsilin, səhiyyənin, mədəniyyətin, bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi, az təminatlı sosial təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya və müavinətlərin müntəzəm olaraq artırılması | Əhalinin həyat səviyyəsinin yüksəldilməsi | 2004-2008-ci illər | Müvafiq dövlət orqanları |
| 3.1.13. | Dağ rayonlarının inkişafına yönəldilmiş kompleks tədbirlərin hazırlanması və həyata keçirilməsi | Dağ rayonlarında əhalinin həyat səviyyəsinin yüksəldilməsi | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, |

| | | | | |
|---|---|---|---|---|
| | | | | yerli icra hakimiyyəti orqanları |
| 3.1.14. | Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi | Kreditlərin verilməsi mexanizminin təkmilləşdirilməsi və onların regionlara yerləşdirilməsinin stimullaşdırılması | 2004-cü il | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Bank |
| 3.1.15. | Girov və ipoteka mexanizminin təkmilləşdirilməsi | Sahibkarların maliyyə təminatının yaxşılaşdırılması | 2004-cü il | İqtisadi İnkişaf Nazirliyi, Milli Bank |
| 3.1.16. | Alternativ maliyyə mənbələri (lizinq, kredit ittifaqları və s.) sahəsində fəaliyyətin canlandırılması | Regionlarda sahibkarların maliyyə və texniki təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Milli Bank, İqtisadi İnkişaf Nazirliyi |
| 3.1.17. | Azərbaycan Respublikasının investisiya xəritəsinin hazırlanması | Regionlara investisiyaların cəlb edilməsi məqsədilə məlumat bazasının təkmilləşdirilməsi | 2004-2005-ci illər | İqtisadi İnkişaf Nazirliyi |
| 3.1.18. | Müasir tipli elektrik stansiyalarının, yolların, kommunikasiya xəttlərinin və digər infrastruktur obyektlərinin inşası, yenidən qurulması və inkişafı layihələrinin həyata keçirilməsi | Regionların infrastruktur təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi, müvafiq dövlət orqanları |
| 3.1.19. | Rayonlarda və qəsəbələrdə nəqliyyatın, avtomobil yollarının və yol infrastrukturunun inkişaf etdirilməsi | Regionların infrastruktur təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Nəqliyyat Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.20. | Əhalinin, xüsusilə kənd əhalisinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, su, qaz, istilik, rabitə və s. ilə təminatının yaxşılaşdırılması | Regionlarda əhaliyə xidmətin səviyyəsinin yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi, müvafiq təşkilatlar, yerli icra hakimiyyəti və bələdiyyə orqanları, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi |
| 3.1.21 | İstehlak mallarının keyfiyyətinə nəzarətin gücləndirilməsi, müasir tipli laboratoriyaların yaradılması | Rəqabət qabiliyyətli keyfiyyətli məhsul istehsalının artırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, müvafiq dövlət orqanları |
| 3.1.22. | Bankların regional filial şəbəkəsinin genişləndirilməsi | Regionlarda sahibkarların maliyyə mənbələrinə çıxışının sadələşdirilməsi | 2004-2008-ci illər | Milli Bank |

| | | | | |
|---|---|---|---|---|
| 3.1.23. | Poçt şəbəkəsi platformasında poçt əmanətləri və poçt hesablaşmaları sisteminin yaradılması, bununla əlaqədar olaraq müvafiq hüquqi-təşkilati və tənzimləmə prosedurlarının müəyyən olunması | Regionlarda mövcud maliyyə resurslarının səmərəli səfərbər olunması və sahibkarların maliyyə təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Milli Bank, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.1.24. | Aqrar-sənaye kompleksi müəssisələrinə, fermer təsərrüfatlarına dövlətin maliyyə yardımı tədbirlərinin davam etdirilməsi və kənd təsərrüfatında bazar prinsiplərinə əsaslanan sığorta sisteminin təşkili | Aqrar, sənaye kompleksinin maliyyə təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.25. | Aqrotexservis xidmətləri şəbəkəsinin yaradılmasının dəstəklənməsi | Fermerlərin texniki təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.26. | Kənd təsərrüfatı maşınlarının və onların ehtiyat hissələrinin, gübrələr və bitki mühafizə preparatlarının topdansatış ticarəti ilə məşğul olan qurumların fəaliyyətinin dəstəklənməsi | Fermerlərin texniki təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.27. | Baytar-sanitar, texniki nəzarət, sort-sınaq, fitosanitar, toxumçuluq və damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi və maliyyələşdirilməsi, suvarma sistemlərinin və ekoloji, aqro və hidrometeoroloji şəbəkəsinin genişləndirilməsi | Kənd təsərrüfatına xidmət sahələrinin inkişafı, fermerlərin müxtəlif xidmətlərə olan tələbatının ödənilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, [3] Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları [4] |
| 3.1.28. | Torpaqların eroziyasının və şoranlaşmasının qarşısının alınması, torpaq kadastrının yaradılması, torpaq sahələri üzərində mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi | Məhsuldarlığın artırılması, torpaq bazarının yaradılması | 2004-2008-ci illər | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Kənd Təsərrüfatı Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| | prosedurlarının sadələşdirilməsi | | | |
| 3.1.29. | Meliorasiya-irriqasiya sistemləri və qurğularının yenidən qurulması və inkişafı, suvarma-drenaj infrastrukturunun bərpası və tamamlanması, suvarma paylayıcı sistemi və onun idarə edilməsi layihələrinin dövlət tərəfindən dəstəklənməsi və maliyyələşdirilməsi | Regionların su təminatının yaxşılaşdırılması, suvarılan torpaqların meliorativ vəziyyətinin sağlamlaşdırılması, əhalinin və xalq təsərrüfatı obyektlərinin sel və daşqın sularından qorunması, yeni iş yerlərinin açılması | 2004-2008-ci illər | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.1.30. | Əhalinin sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi şəbəkəsinin inkişaf etdirilməsi | Turizmin və sanatoriya-kurort sisteminin inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin yaradılması | 2004-2008-ci illər | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.1.31. | Regionlarda əhaliyə pensiyaların və pensiyalara əlavə olunan müavinətlərin ödənişinin mütərəqqi üsullarının (plastik kartlarla bankomatlar vasitəsilə ödəmə, bank ödəmə şəbəkəsinin genişləndirilməsi və s.) tətbiqinin təmin edilməsi | Pensiyaların və digər sosial müavinətlərin əhaliyə vaxtında və rahat çatdırılmasının təmin edilməsi | 2004-2008-ci illər | Dövlət Sosial Müdafiə Fondu, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Milli Bank |
| 3.1.32. | Ümumtəhsil məktəblərinin 10 illik kompüter texnologiyası ilə təchizi proqramının hazırlanıb həyata keçirilməsi | Təhsil sisteminin müasirləşdirilməsi | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.1.33. | Orta məktəb şagirdlərinə dərsliklərin pulsuz verilməsi | Əhalinin təminatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.1.34. | Sağlamlıq imkanları məhdud uşaqlar üçün bölgələr üzrə məktəb, internat-məktəb, texniki peşə məktəblərinin yaradılması, bu müəssisələrin ixtisaslı pedaqoji kadrlarla təminatı üçün məqsədli yenidən hazırlanma kurslarının təşkili | Sağlamlıq imkanları məhdud uşaqların təhsil probleminin aradan qaldırılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.1.35. | Orta ümumtəhsil məktəbləri şagirdləri arasında sahibkarlıq fəaliyyəti ilə bağlı olimpiadaların, | Yeniyetmələrin erkən yaşlarından əmək vərdişlərinə | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial |

| | | | | |
|---|---|---|---|---|
| | viktorinaların, məşğulluq problemləri ilə bağlı dəyirmi masaların və konfransların keçirilməsi, gənclərin işsizlik problemləri ilə bağlı sosioloji tədqiqat işlərinin aparılması | yiyələnmələrinin təmin edilməsi | | Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları |
| 3.1.36. | Boş iş yerləri haqqında məlumatların toplanması, ölkənin müxtəlif regionlarında əmək birjalarının yaradılması və əmək yarmarkalarının keçirilməsi | Əhalinin məşğulluğunun təmin olunmasına kömək edilməsi | 2004-2008-ci illər | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.37. | İşsizlik müavinətinin və peşə hazırlığı ilə bağlı təqaüdün minimum məbləğinin artırılması haqqında təkliflərin hazırlanması | Əhalinin sosial müdafiəsinin gücləndirilməsi | 2004-cü il | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, yerli icra hakimiyyəti orqanları |
| 3.1.38. | Xarici ölkələrdə əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə dair təkliflərin hazırlanması | Xarici ölkələrdə əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi | 2004-cü il | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu |
| 3.1.39. | Gənc ailələrin sahibkarlıq fəaliyyətinə cəlb olunması, ailə təsərrüfatlarının yaradılmasının dəstəklənməsi, iqtisadi, hüquqi və informasiya yardımının göstərilməsi, güzəştli kreditlərin və ssudaların verilməsi | Gənc ailələrin məşğulluğunun təmin edilməsi | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 3.1.40. | Qabaqcıl sahibkarların təcrübəsinin yayılması məqsədi ilə kütləvi informasiya vasitələrində xüsusi rubrikaların açılması, verilişlərin hazırlanması, seminarların, təlim kurslarının, dəyirmi masaların təşkil edilməsi, qabaqcıl müəssisə və təsərrüfatların fəaliyyəti ilə tanışlıq məqsədi ilə tədbirlərin keçirilməsi | Gənclərin faydalı əməklə məşğulluğunun təbliği | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları |
| 3.1.41. | İstedadlı gənclərin müasir peşə və ixtisaslar üzrə inkişaf etmiş ölkələrdə təhsil almalarına və istehsalat | İstedadlı gənclərin müasir peşə və ixtisaslara yiyələnmələrinə şərait yaradılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Maliyyə Nazirliyi, |

| | | | | |
|---|---|---|---|---|
| | təcrübəsi keçmələrinə kömək edilməsi | | | İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.1.42. | Sərhədyanı və dağlıq rayonlarda gənclər üçün yeni iş yerlərinin yaradılması, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasının təşviqi | Rayonların iqtisadi baxımdan inkişaf etdirilməsi və gənclərin şəhərə axınının qarşısının alınması | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları |
| 3.1.43. | Gənclərin sahibkarlıq fəaliyyəti və əmək məşğulluğu ilə bağlı beynəlxalq əməkdaşlığın genişləndirilməsi, onların beynəlxalq proqramlarda, layihələrdə iştirakının təmin olunması, xarici ölkələrdə əmək miqrasiyası məsələlərinin tənzimlənməsi sahəsində tədbirlərin həyata keçirilməsi | Gənclərin faydalı əməklə məşğulluğunun təmin edilməsi | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları[5] |
| 3.1.44. | İş axtaran gənclər üçün yardım proqramlarının hazırlanması | Gənclər arasında məşğulluğun artırılması | 2004-cü il | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları |
| 3.1.45. | Gənclər üçün biznes-məsləhət mərkəzlərinin, maliyyə və kommersiya işlərinə dair məsləhət xidmətinin göstərilməsi, biznes kurslarının və treninq məşğələlərinin təşkil edilməsi, müvəqqəti və mövsümi iş yerlərinin açılması | Gənclərin faydalı əməyə cəlb edilməsi və məşğulluğun artırılması | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi və digər müvafiq dövlət orqanları |
| 3.1.46. | Kütləvi informasiya vasitələrində yeni iş yerləri, əmək qanunvericiliyi, normativ-hüquqi sənədlər haqqında məlumatların verilməsi, bu məqsədlə informasiya bülletenlərinin | Gənclərin faydalı əməklə məşğulluğunun təbliği | 2004-2008-ci illər | Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə |

| | | | | |
|---|---|---|---|---|
| | və metodiki vəsaitlərin nəşr edilməsinin stimullaşdırılması | | | Nazirliyi və digər müvafiq dövlət orqanları |

### 3.2. İqtisadi rayonlar üzrə həyata keçiriləcək tədbirlər

| | | | | |
|---|---|---|---|---|
| **3.2.1. Abşeron iqtisadi rayonu üzrə** | | | | |
| 3.2.1.1. | Yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi | Yol nəqliyyatı sisteminin yaxşılaşdırılması | 2004-2008-ci illər | Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.2.1.2. | Yaşayış məntəqələrinin su təchizatı və kanalizasiya sisteminin bərpası | Əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.3. | Elektrik enerjisi, qaz və istilik təminatı sisteminin yaxşılaşdırılması | Elektrik enerjisi, qaz və istilik təminatının daha da yaxşılaşdırılması | 2004-2008-ci illər | Sənaye və Energetika Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, «Azərenerji» SC, «Azəriqaz» SC və yerli icra hakimiyyəti |
| 3.2.1.4. | Neft və qaz çıxarma, neft kimyası və kimya, qara və əlvan metallurgiya, energetika, yüngül və yeyinti sənayesinin inkişafı | Sənayenin inkişafına kömək edilməsi, məşğulluğun artırılması | 2004-2008-ci illər | Sənaye və Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.2.1.5. | Regionun təbii resurslarından — meşə, su, yabanı bitkilər və s. səmərəli istifadənin gücləndirilməsi | Regionun iqtisadi inkişafında təbii resurslardan istifadənin səmərəliliyinin artırılması | 2004-2008-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.1.6. | Ali, orta ixtisas, texniki peşə, həmçinin şəhər və kənd ümumtəhsil məktəblərinin təmiri, texniki təchizatının yaxşılaşdırılması | Təhsil sisteminin yaxşılaşdırılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.7. | Gənc fermer və sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin və subsidiyaların ayrılması barədə təkliflərin hazırlanması | Gənclərin məşğulluğunun təmin edilməsi | 2004-cü il | Gənclər və İdman Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.1.8. | Səhiyyə və digər sosial obyektlərin bərpası və inşası | Əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması | 2004-2008-ci illər | Səhiyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Abşeron rayonu** | | | | |
| 3.2.1.9. | Maldarlıq, donuzçuluq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük, quru subtropik meyvəçilik və s. sahələrin inkişafının sürətləndirilməsi | Kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi və məşğulluğun artırılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.10. | Zeytun təsərrüfatlarının bərpası və inkişafı | Zeytun məhsullarına olan tələbatın ödənilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.11. | Mişardaşı, əhəng daşı, sement xammalı, kvars və tikinti qumları və s. tikinti materiallarının istehsalının genişləndirilməsi, yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyat işlərinin gücləndirilməsi | Yerli xammaldan səmərəli istifadənin təmin olunması, yeni iş yerlərinin yaradılması | 2004-2008-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.12. | Ət emalı müəssisələrinin, süd zavodlarının yenidən qurulması və yeyinti məhsulları üzrə mini müəssisələrin yaradılması | Əhalinin yeyinti məhsullarına olan tələbatının ödənilməsi, yeni iş yerlərinin yaradılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.13. | Xırdalan şəhərinin təzyiqli kanalizasiya kollektorunun qəza vəziyyətində olan hissəsinin dəyişdirilməsi [6] | Kanalizasiya sisteminin yaxşılaşdırılması | 2004-cü il | Dövlət Tikinti və Arxitektura Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.14. | Sement istehsalının dəstəklənməsi | Sement ilə təminatın yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi,Sənaye və Energetika Nazirliyi |
| 3.2.1.15. | Uşaq qidası istehsalının dəstəklənməsi | Uşaq qidası ilə təminatın yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.1.16. | Əlillər üçün idman və sağlamlıq mərkəzinin inşası | Əlil və şəhid ailələrinin sağlamlığının qorunması | 2004-2005-ci illər | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, yerli icra hakimiyyəti |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.1.17. | Abşeron rayonunda 200 şagirdlik Məhəmmədli kənd orta və 200 şagirdlik Əliqulu qışlaq kənd əsas məktəb binalarının tikintisi, 4 məktəbdə əsaslı təmir aparılması, 3 məktəbdə isə 540 şagirdlik 27 əlavə sinif otaqlarının tikilməsi | Təhsil sisteminin yaxşılaşdırılması | 2004-2007-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Xızı rayonu** | | | | |
| 3.2.1.18. | Bitkiçilik, heyvandarlıq, quşçuluq məhsullarının istehsalı və emalının dəstəklənməsi | Kənd təsərrüfatının dinamik inkişafının və məşğulluğun təmin edilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.19. | Qarışıq yem istehsalının dəstəklənməsi | Heyvandarlığın inkişafı üçün yem bazasının yaradılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.20. | Tikinti materialları və süfrə suları istehsalının dəstəklənməsi, yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatının gücləndirilməsi | Rayonun təbii sərvətlərindən səmərəli istifadə edilməsi və məşğulluğun təmin edilməsi | 2004-2008-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.21. | Xızı rayonunda kurort-sanatoriya obyektlərinin tikintisi və turizmin inkişafı | Yeni iş yerlərinin yaradılması | 2004-2008-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.1.22. | Kənd məktəblərinin təmiri və texniki təchizatının yaxşılaşdırılması | Təhsil sisteminin yaxşılaşdırılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.1.23. | İdman kompleksinin tikintisi | İdmanın inkişafı və məşğulluğun təmin edilməsi | 2004-2007-ci illər | Müvafiq dövlət orqanları |
| 3.2.1.24. | Yardımçı kənd təsərrüfatı komplekslərinin tikintisinin dəstəklənməsi | Kənd təsərrüfatının dinamik inkişafının və məşğulluğun təmin edilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.1.25. | Qızılqazıma kəndində 80 nəfərlik turizm kompleksinin inşasının dəstəklənməsi | Turizmin inkişafı | 2004-2008-ci illər | Mədəniyyət və Turizm Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Sumqayıt şəhəri** | | | | |
| 3.2.1.26. | Neft-kimya sənayesinin müasir texnologiya əsasında bərpası və inkişafı | Kimya sənayesi məhsullarına olan tələbatının təmin olunması, yeni iş yerlərinin açılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, «Azərkimya» Dövlət Şirkəti,Sənaye və Energetika Nazirliyi |
| 3.2.1.27. | Metallurgiya sənayesinin, o cümlədən alüminium və boru istehsalının müasir texnologiya əsasında bərpası və inkişafı | Metallurgiya sənayesi məhsullarına olan tələbatın təmin olunması, yeni iş yerlərinin açılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi,Sənaye və Energetika Nazirliyi |
| 3.2.1.28. | Sumqayıtda kompressorlar, kimyəvi gübrələr və toxuculuq məhsullarının istehsalının inkişafının dəstəklənməsi | Şəhərin sənaye potensialından səmərəli istifadə | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.1.29. | Sumqayıtda 400 MVt gücündə yeni istilik elektrik stansiyasının inşa edilməsi | Şəhərin enerji təchizatının yaxşılaşdırılması | 2004-2008-ci illər | Sənaye və Energetika Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.2.1.30. | 330 kv-luq «Yaşma» yarımstansiyasının genişləndirilməsi və 330 kv-luq Dərbənd elektrikötürücü xəttinin çəkilməsi | Elektrik enerjisinə olan tələbatın ödənilməsi | 2004-2008-ci illər | Sənaye və Energetika Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, «Azərenerji» SC |
| 3.2.1.31. | Sumqayıt şəhərinin «Yeni Yaşma» qəsəbəsi ərazisində zəruri infrastruktura malik sənaye şəhərciyinin salınması | Əhalinin məşğulluğunun təmin edilməsi və sənaye yönümlü sahibkarlığın inkişaf etdirilməsi | 2004-2008-ci illər | Müvafiq dövlət orqanları |
| 3.2.1.32. | Tikintisi yarımçıq qalmış ərazi istilik kompleksinin tikintisi və şəhərdə istilik sisteminin bərpası | Şəhərin yaşayış massivlərinin isti su və istiliklə təmin edilməsi | 2004-2007-ci illər | Sumqayıt Şəhər İcra Hakimiyyəti, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.2.1.33. | Sumqayıt şəhərinin su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması | Kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması | 2004-2007-ci illər | Sumqayıt Şəhər İcra Hakimiyyəti, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| 3.2.1.34. | Əlillər və şəhid ailələri üçün 2 yaşayış binasının inşası | Əlil və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması | 2005-ci və 2008-ci illər | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Dövlət Sosial Müdafiə Fondu |
| 3.2.1.35. | Əlillərin bərpa mərkəzinin inşası | Əlillərin sağlamlığının yaxşılaşdırılması | 2004-cü il | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu |
| 3.2.1.36. | Sumqayıt şəhərində 500 şagirdlik 39 №-li orta məktəbin və 960 şagirdlik Tağıyev qəsəbəsi əsas məktəb binalarının tikintisi, 7 məktəbdə əsaslı təmir aparılması, 3 məktəbdə isə 420 şagirdlik 21 əlavə sinif otaqlarının tikintisi | Təhsil sisteminin yaxşılaşdırılması | 2004-2007-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **3.2.2. Gəncə-Qazax iqtisadi rayonu üzrə** | | | | |
| 3.2.2.1. | Gəncə-Yevlax, Gəncə-Qazax-Gürcüstan sərhəddinədək avtomobil yolunun yenidən qurulması | Nəqliyyat xidmətinin yaxşılaşdırılması | 2004-2008-ci illər | Nəqliyyat Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.2.2. | Şəmkir — Maşın kanalının tikintisi və torpaqların suvarılması | Suvarma sisteminin yaxşılaşdırılması | 2004-2008-ci illər | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.2.3. | Gəncə hava limanının yenidən qurulması | Sərnişin və yük nəqliyyat xidmətinin yaxşılaşdırılması | 2004-2007-ci illər | Nəqliyyat Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, «AZAL» Dövlət Konserni |
| 3.2.2.4. | Rayonlararası və rayondaxili yolların bərpası və inkişafı | Yol nəqliyyatı sisteminin yaxşılaşdırılması | 2004-2008-ci illər | Nəqliyyat Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.5. | Ağstafa, Qazax və Goranboy rayonu ərazilərinin minalardan və digər hərbi sursatdan təmizlənməsi | Əhalinin təhlükəsizliyinin təmin edilməsi | 2004-2008-ci illər | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik |
| 3.2.2.6. | Elektrik enerjisi, qaz və istilik təminatı sisteminin yenidən qurulması | Elektrik enerjisi, qaz və istilik təminatının daha da yaxşılaşdırılması | 2004-2008-ci illər | Sənaye və Energetika Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, «Azərenerji» SC, «Azəriqaz» SC və yerli icra hakimiyyəti orqanları |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.2.7. | Yaşayış məntəqələrinin su təchizatı və kanalizasiya sisteminin bərpası | Əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.8. | İqtisadi rayon üzrə aqrotexservis xidmətinin təşkili | Aqrar sektorun inkişafına kömək və məşğulluğun təmin edilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanlan |
| 3.2.2.9. | Regionun ənənəvi sənətkarlıq sahələrinin bərpası və inkişafına dövlət maliyyə yardımının göstərilməsi | Xalq sənətkarlığının inkişafı | 2004-cü il | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.10. | Səhiyyə və digər sosial obyektlərin bərpası və tikintisi | Əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması | 2004-2008-ci illər | Səhiyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.11. | Ali, orta ixtisas, texniki peşə və ümumtəhsil məktəblərinin təmiri və texniki təchizatı ilə bağlı tədbirlərin görülməsi | Təhsil sisteminin daha da yaxşılaşdırılması | 2004-2008-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Ağstafa rayonu** | | | | |
| 3.2.2.12. | Bitkiçilik, atçılıq, qunduzçuluq, arıçılıq və heyvandarlıq məhsullarının istehsalı və satışına maddi-texniki yardım göstərilməsi | Rayonun aqrar potensialından səmərəli istifadənin təmin edilməsi | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.13. | Şərabçılığın, balıqçılığın, toxuculuğun və xalçaçılığın inkişafının dəstəklənməsi | Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi | 2004-2005-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.14. | Yüksək vitaminli yem istehsalı zavodunun tikintisinin dəstəklənməsi | Heyvandırlığın yerli yem bazasının gücləndirilməsi | 2004-2005-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.15. | Tikinti materiallarının istehsalının dəstəklənməsi, yeni tikinti materialları yataqlarının | Tikinti sənayesinin inkişafı | 2004-2008-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |

| | | | | |
|---|---|---|---|---|
| | axtarışı və kəşfiyyatının gücləndirilməsi | | | |
| 3.2.2.16. | Əlillər və şəhid ailələri üçün yaşayış binalarının inşası | Əlil və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması | 2004-cü il | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, yerli icra hakimiyyəti orqanları |
| 3.2.2.17. | 480 şagirdlik Aşağı Kəsəmən kənd və 480 şagirdlik Köçəsgər kənd 1 №-li orta məktəb binalarının tikintisi, 3 məktəbdə əsaslı təmir aparılması, 4 məktəbdə isə 340 şagirdlik 17 əlavə sinif otaqlarının tikintisi | Təhsil sisteminin daha da yaxşılaşdırılması | 2004-2007-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Daşkəsən rayonu** | | | | |
| 3.2.2.18. | Bitkiçilik və arıçılıq məhsullarının istehsalına və satışına maddi-texniki yardım göstərilməsi | Aqrar sektorun inkişafı | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.19. | Daşkəsən dəmir filizi və Xoşbulaq fülüslük əhəng daşı ehtiyatlarının səmərəli istifadəsi ilə bağlı tədbirlər görülməsi | Yerli sənayenin inkişafı | 2004-2007-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.2.20. | Daşkəsən Zəylik alunit mədəninin fəaliyyətinin bərpası | Mədənçıxarma sənayesinin inkişafı | 2004-2007-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi |
| 3.2.2.21. | Çovdar qızıl yatağının istismara cəlb edilməsi məqsədilə investisiya qoyuluşunun dəstəklənməsi | Yerli təbii resurslardan səmərəli istifadə olunması | 2004-2008-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 3.2.2.22. | Şəhər kanalizasiya və su xəttinin çəkilişi | Əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması | 2004-2007-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi |
| 3.2.2.23. | 192 şagirdlik Alaxamçallı kənd, hər biri 80 şagirdlik Quşçu qəsəbə və Çaykənd orta məktəb binalarının tikintisi, 6 məktəbdə əsaslı təmir işlərinin aparılması | Təhsil sisteminin daha da yaxşılaşdırılması | 2004-2007-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| **Gədəbəy rayonu** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.2.24. | Kənd təsərrüfatı məhsullarının, əsasən taxılçılıq, kartofçuluq, arıçılıq və heyvandarlıq məhsullarının istehsalına və satışına maddi-texniki kömək göstərilməsi | Rayonun mövcud aqrar potensialından səmərəli istifadə | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.25. | Mis mədənlərindən səmərəli istifadə edilməsi üzrə təkliflərin hazırlanması | Rayonda mövcud olan yeraltı sərvətlərdən səmərəli istifadə edilməsi | 2004-cü il | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.26. | Rayonun dağlıq və yüksək dağlıq ərazilərində kənd təsərrüfatının inkişafının dəstəklənməsi | Dağlıq ərazilərdə kənd təsərrüfatının inkişafının təmin edilməsi və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması | 2004-2008-ci illər | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.27. | Süfrə suları istehsalının və qablaşdırılmasının dəstəklənməsi | Mineral ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması | 2004-2008-ci illər | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.28. | Xəstəxananın tikintisinin başa çatdırılması | Əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması | 2004-2005-ci illər | Səhiyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.29. | Gədəbəy şəhərinin içməli su təchizatının yaxşılaşdırılması | Əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin yaxşılaşdırılması | 2004-2006-cı illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |
| 3.2.2.30. | 260 şagirdlik Parakənd kənd, 200 şagirdlik Dəyəqarabulaq kənd və 200 şagirdlik Kiçik Qaramurad kənd orta məktəb binalarının tikintisi, 6 məktəbdə əsaslı təmir aparılması, 4 məktəbdə isə 300 şagirdlik 15 əlavə sinif otaqlarının tikintisi | Təhsil sisteminin yaxşılaşdırılması | 2004-2007-ci illər | Təhsil Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi |
| **Gəncə şəhəri** | | | | |
| 3.2.2.31. | Maşınqayırma, metallurgiya, cihazqayırma, elektronika, toxuculuq, | Sənaye sahələrinin inkişafının təmin edilməsi, yeni iş yerlərinin açılması | 2004-cü il | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti və bələdiyyə orqanları |

| | | | | |
|---|---|---|---|---|
| | rabitə avadanlığı istehsalı, avtomobillərin və kənd təsərrüfatı maşınlarının təmiri, ehtiyat hissələrinin hazırlanması, yüngül və yeyinti məhsulları müəssisələrinin yeni texnologiya əsasında inkişafına dair təkliflər hazırlanması | | | |
| 3.2.2.32. | Gəncə avtomobil zavodunda avtomobil yığımının təşkili | Avtomobil istehsalının təmin olunması | 2004-2005-ci illər | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.33. | Tikinti materialları sənayesinin inkişafına dair təkliflərin hazırlanması, yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatının gücləndirilməsi | Əhalinin tikinti materialları ilə təchizatının yaxşılaşdırılması | 2004-cü il | İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.34. | Şəhərin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması | Şəhər əhalisinin içməli su tələbatının təmin edilməsi | 2004-2007-ci illər | Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.35. | Gəncə Radio-Televiziya Ötürücü Mərkəzinin müasir avadanlıqlarla təchizatı və əsaslı təmiri | Radio-televiziya yayım xidmətinin yaxşılaşdırılması | 2004-2005-ci illər | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.36. | Gəncəçay çayının sahil boyunun və məcrasının yenidən qurulması | Sosial-mədəni xidmətin daha da yaxşılaşdırılması | 2004-2005-ci illər | Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti |
| 3.2.2.37. | Tibbi diaqnostika mərkəzinin inşası | Əhaliyə səhiyyə xidmətinin yaxşılaşdırılması | 2004-2007-ci illər | Səhiyyə Nazirliyi, Dövlət Tikinti və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, yerli icra hakimiyyəti |
